# Yeni dövr Azərbaycan sərbəst şeirində poetik görümlülük

**Gültəkin Ağacan qızı Əliyeva**
*filologiya üzrə fəlsəfə doktoru,*
*Bakı Slavyan Universiteti*
**E-mail:** gultekin392@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. B.B. Əhmədov,
filol.ü.e.d., prof. N.T. Məmmədov

**Açar sözlər:** məna qatı, poetik mətn, çeviklik, görümlülük, ölçü strukturu
**Ключевые слова:** смысл, поэтический текст, маневренность, наглядность, объемная структура
**Key words:** meaning, poetic text, agility, visibility, dimensional structur

Yeni dövr sərbəst şeirinin əsas xüsusiyyətlərindən biri də poetik görümlülükdür. Sərbəst şeirin, hər şeydən əvvəl, göz şeiri olduğunu nəzərə almış olsaq, onda onun poeziyasının mahiyyəti bir qədər də aydınlaşmış olar. Şeirin görümlülüyü, onun məna qatının düşünülməsini də zəruri edir. Poetik mətnin çevikliyi, tez-tez müxtəlif situasiyalara girməsi kinokadr kimi bir-birini əvəzləyir. Bəzən bu hərəkətlilik bir misra daxilində belə baş verir. Bu cəhətdən İ.İsmayılzadə yaradıcılığı diqqəti cəlb edir. Onun müharibədən qayıtmayan cavanlara həsr etdiyi "Güllələr demədi..." şeiri belə bir funksiyanı həyata keçirir. "Getdilər... Getdilər fit çala-çala, /getdilər atları çimizdirməyə-/bizi aparmadılar" informasiyası ilə başlayan şeirin məna qatı çox dərindədir. Kəndin cavanları uşaqları "qulançar yığmağa, moruq dərməyə" də aparmırlar. Bir gün müharibənin başlanması xəbəri çıxarkən onların müharibəyə yola düşməsi ilə vaxtilə onların aparmadıqları kəndin kiçik uşaqları sanki böyüyür və həyatda onları əvəz edirlər. Şair bu səhnəni belə təsvir edir:

Yola salanlara qoşulanda biz
yalvarıb-yaxarıb dil tökdü onlar:
"Qayıdın...Qayıdın, geri qayıdın,
Qayıdın atları çimizdirməyə,
qulançar yığmağa, moruq dərməyə..." (1, s. 112).

Burada hər misranın özünün məna yükü və görümlülüyü vardır. Cavanlar müharibəyə gedərkən vaxtilə "qulançar yığmağa, moruq dərməyə" aparmadıqları uşaqları indi də davaya aparmır, onlara geri qayıtmağı, "qulançar yığmağa, moruq dərməyi" tapşırırlar. Onlar müharibəyə getdikdən sonra uşaq hesab etdikləri indi onların əvəzində atları çimizdirir, qulançar və moruq yığmağa gedirdilər. Aradan keçən zamanda indi "mərmilər, güllələr" fit çalarkən onlar da kətmən vurur, yollara baxaraq müharibəyə gedənlərin gəlməsini gözləyirdilər. Şair alliterasiyanın köməyilə şeirdə informativ yükü artıraraq poetik məntiqi nəticəyə gəlir:

Getdilər, getdilər Berlinə sarı,
getdilər...getdilər ölümə sarı...
Qəlpələr demədi, geri qayıdın,
lülələr demədi: geri qayıdın,

güllələr demədi geri qayıdın,
hələ uşaqsınız, nə yaşınız var... (1, s. 113).

Beləliklə, şair müharibə dövründə boy atdığı kəndin adamları, gəncləri, gənclərinin onları uşaq yerinə qoyması və özləri ilə aparmamasını sonrakı hissədə onların müharibəyə getməsi ilə bağlayır. Heç kəs demir ki, geri qayıdın, "sizin nə yaşınız var?" Əslində şair bu gün kənddə "atları çimizdirən", "moruq yığan" gənclərin bu yaşda müharibəyə gedib qayıtmamalarının faciəsinin poetik tarixini yazır. "Güllələr demədi..." şeirinin səciyyəvi cəhətlərini təhlil edən filosof tənqidçi Asif Əfəndiyev həyatın ziddiyyətləri ilə qarşılaşan gənclərin müharibəyə getməsinin psixoloji aspektləri üzərində dayanaraq yazır: "İsanın və başqa gənclərin əsərlərində bizim diqqətimizi cəlb edən həm də həyata müəyyən dialektik baxışdır. Onların əsərlərində əsrin ziddiyyətləri, mürəkkəbliyi, sarsıntı anları, dramatizmi də duyulur. Bu, çox tədqirəlayiq bir xüsusiyyətdir. Çünki əsl nikbinlik, əsl inam həyatın birtərəfli vəsfi deyil. Vəsf olunma ilə təhliledilmə vəhdət təşkil etməlidir" (2, s. 57).

İ.İsmayılzadənin yaradıcılığının bütün mərhələlərində, demək olar ki, bu vəhdət gözlənilmişdir. "Ögey oğullara inanma, Vətən", "Gözü açıq yatan dəniz", "Keçim Qarayazı düzənliyindən", "Oyuncaqsız uşaqlığım", "Ulduzların ad günü", "Gözlərimə şəhər çöküb", "Gözləyin, dünyaya qayıtmağım var", "Səssiz toylar", "Gözlərim yol çəkir" və s. şeirlərində insan mənəviyyatındakı və həyatındakı ziddiyyətlər, xarakterlərindəki mürəkkəblik, bəzən ikiləşmə poetik şəkildə təhlilə cəlb edilir. "Gözləyin, dünyaya qayıtmağım var" şeirində həyat və dünya haqqında deklorativ fikirlər irəli sürülmür, yaşadığı təcrübədən çıxış edərək belə bir poetik məntiqə söykənir. Şeir yalnız məzmun və ideya baxımından deyil, həm də forma cəhətdən şeiri zənginləşdirir:

Bu dünyaya bir də qayıtmağım var...
Qəbrimin üstündə bitən gülləri,
Uyumuş, soyumuş torpağı-daşı
Ölüm sükutundan oyatmağım var.
Bilmirəm çiçəklə, bilmirəm otla,
Bilmirəm ağacla, yoxsa buludla,
dağları yerindən oynadıb gələn
Dəli qışqırıqla, yoxsa sükutla-
deyə bilmirəm... (1, s. 104).

Şair əmindir ki, yüz ildən, bəlkə də min ildən sonra bu dünyaya dönməyi vardır. Çünki əmindir ki, onu aparan "Kürün uğultusu", "suyun şırıltısı", "sehrli ilğımlar" bir gün ona əl eləyib bu dünyaya yenidən gətirə biləcəklər.

İ.İsmayızadə sərbəst şeirinin əsas xüsusiyyətlərindən biri də hadisənin, predmetin görümlülüyünü yaratmaq, onun şəklini çəkmək və yaddaşa köçürməkdir. Şairin əksər şeirlərində süjetliliklə yanaşı, görümlülük də başlıca rol oynayır. Belə ki, şair hər hansı bir hadisəni təsvir edərkən fiziki görümlülüklə yanaşı, fikrin hərəkətini də yarada bilir. Şairin poetik üslubunu da məhz bu amil formalaşdırır. Tənqidçi Yaşar Qarayev İ.İsmayılzadənin sabitləşən poetik fərdi üslubunun əsas xüsusiyyəti kimi bunu nəzərdə tutaraq yazırdı: "Bunlar çox vaxt predmet yox, predmetlər arasındakı hərəkəti, əlaqələri mənalandırmaq axtarışlarında yaranan şeirlərdir. Predmetləri canlandırmaq, "cisimləşdirmək", onlara "vücud" kəsb etdirmək də bu şairlərə məhz həmin məqsəd üçün lazım olur. Bu şeirlərin çoxu bir obraz üzərində qurulan, bir epitetdən yaranan şeirlərdir" (158, s. 62). Tənqidçinin bu fikri İ.İsmayılzadə sərbəst şeirinin ma-

hiyyətini bütünlüklə özündə ehtiva edir. Şairin "Əlsiz qalan yetim ciblər", "Heykəl yetim qaldı", "Səssiz toylar", "Gecə köynəyni geyinsin şəhər", "Dənizin üzündə səhər yuxusu", "Mən bir termos şüşəsiyəm", "Qəbirlər", "İkiyə bölünmüş gün" və s. onlarla şeirlərində hər hansı bir detal üzərində edilmiş poetik təfərrüatları xatırladır. "Mən bir termos şüşəsiyəm" şeirində şair öz tərcümeyi-halını yazır; termos şüşəsini cisimləşdirərək ona fəlsəfi poetik məna verir. Özünü bir termos şüşəsi kimi çilik-çilik olmuş və içinə tökülmüş kimi hiss edən "lirik mən" özünün sındırlma səbəbini tənhalığa bağlayır. Lakin termos şüşəsi kimi onun da sındırılması heç kimin vecinə deyil. Lirik qəhrəmanın sınan ürəyinin, qəlbinin qırıntıları qəlpəyə dönüb "dostuna", "tanışına", "arzusuna dəyə bilər". Lakin bir gün kiminsə əlləri bu termos şüşəsinin qırıntılarını bir yerə toplayıb "yan-yana düzə bilər". Termos şüşəsi ilə lirik qəhrəmanın həyatındakı oxşarlıqlar iki taleni qarşılaşdırır:

Mən bir termos şüşəsiyəm...
Təzədən, təzədən,
təzədən sınmaq üçün,
təzədən yanmaq üçün
bir heyrətin üstünə
daş kimi düşəsiyəm... (1, s. 215).

Bu, hər şeydən əvvəl, poeziyada hadisənin və predmetin əyaniləşməsidir və İ.İsmayılzadə şeirlərinin əsas xüsusiyyətini təşkil edir. Tənqidçi V.Yusifli də İ.İsmayılzadə şeirlərinin əyaniləşməsini təqdir edərək yazır: "İsa İsmayılzadənin eyni üsulla qələmə aldığı digər şeirlərində də beləcə mücərrəd mənəvi anlayışlar, hərəkətlər və proseslər əyaniləşir. Və bu şeirlərdə də bədii konstruksiya-quruculuq missiyası yerinə yetirilir" (3, s. 351).

Hadisənin, predmetin əyaniləşməsi və poetik görümlülük R.Rövşənin ilk dövr yaradıcılığının da əsas xüsusiyyətlərindən birinə çevrilir. R.Rövşənin bu illərdə yazdığı şeirlər nə qədər sərbəstliyi ilə seçilsələr də, əsasən heca üstündə yazılmışdı. "Ön birlik üstündə", "Bir durna oxuyur", "Günah içində", "Qara əl" və s. şeirləri heca üzərində yazılmışdı və ilk şeirlər olduğundan hələ həyat və cəmiyyət hadisələrinə nüfuz etmək imkanı zəif idi. 60-cı illərin sonlarına doğru gənc şairin heca ilə sərbəstin qarışığı "Nəğmə qırğını ili" (Federiko Qarsiya Lorkaya), "Bir nəğmə toxumu basdırdım yerə", "İlxılar", "Torpaq", "Ağ yelkənli gəmilər", "Dəniz nağılı" və s. şeirlərini yazdı. Bu şeirlərində şair özünün poetik yolunu müəyyənləşdirməyə, poetik formanın orijinal yolunu tapmağa çalışırdı. Sərbəst şeirçilərin sırasına 70-ci illərin əvvəllərindən R.Rövşən də qoşulur və yaradıcılığı 80-ci illərdə bütün gücü ilə poeziyanın imkanlarından maksimum istifadə yolunu tutur. "Göy üzü daş saxlamaz" (1987) kitabına qədər keçdiyi yol, həm də sərbəst şeirin yeni forma xüsusiyyətlərini bəlirləyir. Bu şeirlərindən başlayaraq gələnəksəl milli şeirlə sərbəst şeirin yeni modelini yaratmaq, onları sintez etməyə üstünlük verir. "Balıqların donuq bəbəklərində,/Sızılar ulduzların yuxusuzluğu" ("Dəniz nağılı"), "Ağ yelkənli gəmilərə/yetişməz əlim,/Mənə kəndir sallamazlar/gəmilərin divarlarından" ("Ağ yelkənli gəmilər"), "Torpaq elə yumaqdı ki,\Dama öləndə belə,/Yıxılıb öz kobud bədəniylə/bu torpağı ağrıtmağa utanır" ("Torpaq", "Nəğmələr öldürdülər,/Nəğmələr/şairlərin qapısını/döyürdülər: /-Açın! /Gizlənək" ("Nəğmə qırğını ili") və s. poetik düşüncələri ilə fikrin və formanın sərbəstliiyinə meyil edirdi. Bu yaradıcılıq nümunələrində sosialist realizminin çərçivələrini sındıran şair "Bir yağışlı nəğmə" (1972) şeir kitabındakı lirik qəhrəmanın düşüncələri fərqli dünyagörüşü sərgiləyirdi. "Bu laqeyd adamlar arasında mən/Sağıma, soluma/Göz yuma bilsəm" lirik qəhrəmanın azadlıq arzusunun müjdəsi idi. Bundan sonra şair poetik düşüncələrində olduğu kimi, formada da orijinallığa və sərbəstliyə yol aldı.

Ənənəvi Azərbaycan şeiri üzərində gedişləri və gəzişmələri yeni qoşma və gəraylı nümunələrini ortaya qoydu. Lakin bu da hələ onun öz yolu demək deyildi; getdikcə şair öz yolunu-modern şeirin yolunu tutdu və sərbəst şeirin Ə.Kərim, Ə.Salahzadə və İ.İsmayılzadədən tamamilə fərqlənən yeni nümunələrini yaratdı. Onun sərbəst şeirlərində vənzli-vəznsizlik əvəzləməsi yeni poetik intonasiya yaradır. Şairin poeziyasının ölçü strukturu kifayət qədər forma və məzmun vəhdətinə malik olur. Onun sərbəst şeirində həm də bir qafiyələnmə var; hər bir sətirdə fikrin düzülüşü, misranın ölçüsü, hecaların sayı nə qədər sərbəst olsa da, bütün bu müxtəlifliklər müəyyən bir ahəngə tabe olur. Bu misraların bəzən biri, bəzən ikisi, bəzən isə dalbadal üçü də müstqil şəkildə çıxış edir. “Ay işığı”, “Göy üzü daş saxlamaz”, “Bulud”, “Başı kəsik gözəl kötük”, “Astar üzünə”, “Bir az uzun çəkdi ömrüm deyəsən” və s. şeirlərində orijinal ahəng və intonasiya yarada bilir. Həm də şeirlərində mistik bir aura yaradır və oxucunu da özü ilə aparır. Şair bu şeirlərinin hər birində sanki yeni bir dünya kəşf edir və oxucunu da buna inandırır. Bəzən isə şair son dərəcə poetik təhkiyə ilə nağılvari şəkildə nəql edir:

Ay işığı düşdü göydən,
canımdan, qanımdan keçdi,
Gözümün içindən keçdi,
Özümün içimdən keçdi,
keçdi, dabanımdan keçdi,
Az qaldı ki,
iki yerə bölə məni.
Başımdan göyə mıxladı,
dabanımdan yerə məni (5, s. 9).

R.Rövşənin hər bir şeirinin özünəməxsus stixiyası var; mütləq bir obraz yaradır və bu obrazı sonacan tanıtmaqla, izah etməklə məşğul olur. Özü də bu obrazların hər birində olan mistika oxucunu da bu ruha kökləyir. Oxucu da bu obrazın daxili dünyasına köklənir. İkinci əsas xüsusiyyəti şairin metaforik obrazlardan zənginliklə istifadə etməsidir. Çox zaman şeirin adından başlanan bu metaforik düşüncə sözdən misraya, misradan sərbəst bölgüyə, bölgüdən bütöv şeirə keçir və şeir boyu davam edir. Özü də burada məntiqlə hiss bir-birini əvəz edir, bir çox hallarda bir-birini tamamlayır. “Başı kəsik gözəl kötük”, “Bir az uzun çəkdi ömrüm deyəsən”, “Qədrimi bilmədi bu adam mənim”, “Göy üzü daş saxlamaz”, “İlan balası”, “Çiçəklər doğulur bu yaz gecəsi”, “Dünya məndən kimlər keçdi”, “Özünə qayıdır, hər şey özünə” və s. şeirlərində müəllifin intuitiv tapıntıları elmi əsası və ya fəlsəfi dayağı olan şüuraltı fəhmlə məntiqin paralelliyi ilə baş verir. “Durub göy üzünə daş atan oğlan, /göy üzü daş saxlamaz”, — metaforik düşüncəsi müxtəlif variasiyalarla sonacan lirik qəhrəmanın özünüdərk prosesini qavramağa kömək edir:

Hələ ki, başına-gözünə qıymaz,
atdığın daşları saxlar göy üzü.
Atdığın daşları tutub əlində,
səni illər boyu yoxlar göy üzü.
Qırxıq başın tüklənincə,
O dumduru gözlərin
bulanınca, çirklənincə,
atdığın daşları saxlar göy üzü (5, s. 30).

R.Rövşən şeirboyu yalnız bir misranın aurasına köklənib məhdudlaşmır, bu metaforik obrazı sərbəst bölgülər boyu açır. "İlan balası" şeirində də belədir. Bu cür sərbəst şeir modeli R.Rövşən yaradıcılığının əsas xüsusiyyətlərindəndir. Şeirin məzmunundakı orijinallıq onun strukturuna da sirayət etmiş, mifik dünya ilə real dünyanın sərhədləri itmiş və ya qəsdən qarışdırılmışdır. Körpə ilan balasının böyüməsi prosesinin özünün təsviri bioloji mahiyyətlə yanaşı, həm də mənəvi kontekstdə verilir. İlan balasının aldığı hava, canına dolan küləyin nəfəsi, bir sevgi həvəsidir; "...Özündən xəbərsiz, /səssiz-səmirsiz,/Zəhərə çevrilir canında hər şey..." Beləcə, ilan balasının bir zəhərli ilana çevrilməsi onun dünyanın hər üzünə öyrənməsi xarakterindən qaynaqlandığının anatomiyası təsvir edilir. Yaxud "Çiçəklər doğulur bu yaz gecəsi,/bu yaz gecəsində ölməyə nə var" metamarfozası şeirboyu davam edir və beləliklə, şair dünyanın bilmədiyimiz, bilib görmədiyimiz üzünü bizə bir daha tanıdır. Burada da mistik dünya ilə real dünyanın paralelliyini görürük. Tənqidçi E.Akimovanın şairin yaradıcılığı haqqında elmi qənaəti tamamilə doğrudur: "Ramiz Rövşən poeziyası, ümumiyyətlə, insanın fizioloji varlığını (yalnız insanınmı?! Eləcə də hər bir canlının. Yenə də "İlan balası" şeirini yada salaq-G.Ə.) Tanrının əbədi varlığına tabe tutur, ona yetmək üçün ölümü vəsf edirdi. Bu şeirlərdə ölümə çox doğma, məhrəmcəsinə münasibət vardı və bu məhrəmlik şairi öz çağdaşlarından daha çox sələfi Füzuli ilə birləşdirirdi" (6, s. 323).

R. Rövşən sərbəst şeirləri poetik ovqat, ruh və lirik qəhrəman baxımından da novatorluq xüsusiyyətlərini özündə daşıyır. Şairin hər bir şeirində yeni intonasiya olduğu kimi, həm də bir ruh, əhvali-ruhiyyə vardır. Hətta onun sevgi şeirlərində də bu ovqat gözlənilir. Şair özü şeirləri "sevgi şeiri", "təbiət şeiri" və s. başlıqlar adı altında təqdim edilməsinin əleyhinə olsa da, yaradıcılığında sevgi, məhəbbət lirikasına da yer verilmişdir. "Sevgi", "Qara paltarlı qadın", "Bu güzgüyə bir vaxt qoşa baxardıq", "Sevim dönə-dönə səni", "Ayrılıq" və s. onlarla şeirlərində sevginin sentimentallığı ilə yanaşı, şüuraltı düşüncə qatını da üzə çıxarmağa çalışır. Bu şeirlərdə şair çox zaman sevginin tarixini, yaxud taleyini yazır. "Qara paltarlı qadın" şeirində qadın taleyini onun dünyası kontekstində təsvir edir. Burada şair kişilərin öləndən sonra üstündə ağlayacaq bir qadına ehtiyacını sevgi kontekstində təqdim edir. Burada sevginin özünü yox, yaşanaraq başa çatmış sevginin külünün fərqli şəkildə təsvirini görürürk: "Sən öləndə/kim olacaq gözlərini bağlayan?/Qardaşmı olacaq?/Yadmı olacaq?/Bu dünyada/bəlkə sənə ən çox ağlayan/Ən çox ağlatdığın qadın olacaq". Ömrü boyu qadınının sevgisinə layiq olmayan kişi "Bu qadın/baş daşımı/opüb sığallamaqdansa, / Yumruğuyla döysə, döysə yaxşıdı", — deyə peşimançılıq hissi keçirir. Bu qadının sevgisinə layiq olmadığını dərk edən lirik qəhrəmanın gəldiyi qənaət belədir:

Yeri, yeri qara paltarlı qadın,
Kiri, kiri qara paltarlı qadın.
Bu qəbir də min qəbirdən biridi,
baş daşımı bəsdi basdın bağrına.
Bütün mənə ağlayanlar kiridi,
sən də kiri, qəbrim damır, ağlama!.. (7, s. 67).

S.Rüstəmxanlının "Sağ ol, Pablo Neruda", "Anaya əsgər məktubu", "Azərbaycan sözü", "Vətən", "Qələbənin ilk baharı" və s. şeirlərində poetik formanın yaddaqalan nümunələrini yaratmışdır. Bu cəhətdən "Vətən" şeiri və bu istiqamətdə yazılmış digər şeirləri sərbəst şeirin ənənəvi mövzuya müraciəti baxımından olduqca əhəmiyyətlidir. Şair bu şeirdə yurdun təbiətinə, tarixinə, sənət və sənətkarlarına assosiativ müraciət edir və bir çox uyğunluqlar görür. Şair üçün Vətən:

Hadinin şeir bazarıdı,
Füzulinin qürbətdəkii məzarıdı.
Taleyin ələnən ələyidi,
Durna lələyidi.
Araz hörüyündən
Kəməndə tutulmuş Sevildi,
"ənəlhəqq" harayıdı.
Ələsgərin sazıdı,
Qədim əlyazmasıdı-
Dahilər boylanır sətirlərindən
Vətən...Vətən... (8, s. 65)

Şairin "vətən" məfhumlu metaforaları davam edir; onun lirik qəhrəmanı üçün Vətən- "yandıqca odlanan ocaqdı", "daddıqca dadlanan arzudu", "bir dərə bahar leysanıdı", "21 Azərin qanıdı", "Cavad xanın qətl yeridi", "Sabirin "Fəxriyyə" şeiridi", "bir əlçim buluddu", "bir ömür umuddu". Buradakı misraların hər biri həm müstəqildi, həm də bir-birilə əlaqəlidi. Onları əlaqəli edən isə bir məfhumdur: Vətən! Tənqidçi Aydın Məmmədov çox doğru olaraq, S.Rüstəmxanlının "Vətən" şeirini poetik formanın ən yaxşı nümunəsi olaraq vaxtilə təhlilə cəlb edərək "Vətən" məfhumunun böyük bir assosiasiya doğurduğunu yazırdı: "Burada "Vətən" sözü konkret coğrafi məkan deyil, ümumiləşdirilmiş metafora, hər misra isə öz-özlüyündə bu ümumi metaforanın mərtəbə-mərtəbə açılışına xidmət edən metaforadır. Buna görə də biz misradan-misraya keçdikcə bir metaforadan başqasına adlayır və ardıcıl surətdə yerləşdirilən və əlaqələndirilən metaforalar sislsiləsini dərk etməklə daha ümumi metaforanın-Vətənin daşıdığı mahiyyəti panoram şəklində qavrayırıq" (Məmməd, 1988, 27). Tənqidçi haqlıdır; burada ayrı-ayrı misralar arasında normal qrammatik uzlaşma və qafiyələnmə olmasına baxmayaraq, misralar arasında məntiqi əlaqələnmə yalnız son sətirdə məlum olur. Yəni hər bir misradan sonra nəyin gələcəyini əvvəlcədən bilmək olmur ki, bu da şairin sərbəst assosiativ bədii təfəkkürünün xüsusiyyətlərindən biri hesab olunmalıdır.

Sərbəst şeirin 60-70-ci illər mərhələsinin özünəməxsus inkişaf yolunda baş verən prosesləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Bu mərhələdə sərbəst şeir üslubi cəhətdən zənginləşir və genişlənir;
2. Yeni qüvvələrin gəlməsi ilə fərdi poetik üslublar çoxalır;
3. Assosiativ poeziya daha da genişlənir və özünü təsdiq edir;
4. Çevik variasiyalar, fikrin mövqe lastikliyi sərbəst poetik forma üçün daha səciyyəvi və effektiv olur;
5. Sərbəst şeirdə operativ qavrayış və ritmik üzvlənmə, intonasiya ön plana keçir;
6. Əvvəlki inkişaf yoluna nisbətən sərbəst şeirin sərbəstliyi bir qədər də artır:
7. Sərbəst şeirdə poetik obrazlılıq, ekspressivlilik, emosionallıq yeni mərhələyə daxil olur.

Beləliklə, sərbəst şeirin bu inkişaf mərhələsində həm mövzu və ideya, həm də struktur, kompozisiya baxımından müəyyən bir yol keçdiyini görürük. Sərbəst şeir bu dövrdə ümumən poeziyanı müxtəlif komponentlər baxımından zənginləşdirmiş və inkişaf etdirmişdir. Sərbəst şeir forma ilə məzmunun maksimal vəhdətinə can atmış, yeni bədii təsvir və ifadə vasitələrindən sənətkarlıqla istifadə edilmişdir. Şeirdə hadisə və proseslərin yeni poetik düşüncə stereotipləri formalaşmışdır. Poeziyanın fonetik səslənməsi məzmun və mahiyyətdən doğmuş, onun təsvir effektivliyini artırmışdır. Bütün bunlar sərbəst şeirin yeni mərhələyə daxil olmasında geniş imkanlar açmışdır.

**Məqalənin aktuallığı.** Uzun müddət ədəbi tənqidin və ədəbiyyatşünaslığın mübahisə predmeti olan sərbəst şeirin inkişaf yolu, mərhələ və problemlərinin araşdırılması məqalənin aktuallığını şərtləndirir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik məqalədə Azərbaycan sərbəst şeir yaradıcılığının poetika problemlərinin araşdırılmasından ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən çağdaş Azərbaycan ədəbiyyatı və poeziya üzrə ali təhsil müəssisələrinin seminar və məşğələlərində, sərbəst şeirin tarixi, nəzəri məsələləri, inkişaf yolu və mərhələləri ilə bağlı aparılan araşdırmalarda istifadə oluna bilər.

## Ədəbiyyat

1. İsmayılzadə İ. Seçilmiş əsərləri. Şeirlər və poemalar. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1991, səh. 350.
2. Əfəndiyev A. Müdriklik səlahiyyəti. Bakı, Gənclik, 1976, səh. 192.
3. Qarayev Y. İmzalar və ümidlər. Bakı, Ulduz, 1973, №3, səh. 51-52.
4. Yusifli V. Poeziyanın yolları və illəri (1960-2000-ci illər). Bakı, Mütərcim, 2009, səh. 404.
5. Ramiz R. Göy üzü daş saxlamaz. Bakı, Yazıçı, 1988, səh. 158.
6. Akimova E. Düşüncə zamanı - ədəbi tənqid diskurs kimi. Bakı, Elm və təhsil, 2019, səh. 600.
7. Ramiz R. Nəfəs. Bakı, Qanun, 2006, səh. 760.
8. Rüstəmxanlı S. Sağ ol, ana dilim. Bakı, Gənclik, 1983, səh. 208.

**Г.А. Алиева**

## Поэтическое видение в новой эпохе Азербайджанской свободной стихотворение

## Резюме

В статье показано, что наглядность свободной поэзии заставляет задуматься над ее смыслом. Каждый стих имеет свое значение и свое видение. Подвижность поэтического текста взаимозаменяема, как и в кино это движение происходит внутри строки. Таким образом, на данном этапе развития свободной поэзии мы видим, что она прошла определенный путь как в плане темы и идеи, так и структуры и композиции. Свободная поэзия в этот период обогащала и развивала поэзию в целом по различным компонентам. Он стремился к максимальному единству формы и содержания в свободной поэзии, умело использовал новые средства художественного описания и выражения. В поэме сформировались новые поэтические стереотипы событий и процессов. Фонетическое звучание поэзии рождалось из содержания и сущности и повышало ее описательную эффективность. Все это открыло широкие возможности для выхода свободной поэзии на новый этап.

**G.A. Alieva**

## Poetic vision in contemporary Azerbaijan free verse


### Summary

The article shows that the visibility of free poetry makes it necessary to think about its meaning. Each verse has its own meaning and vision. The agility of the poetic text is interchangeable, as in the case of cinema, this movement takes place within a line. Thus, at this stage of development of free poetry, we see that it has passed a certain way in terms of both theme and idea, as well as structure and composition. Free poetry in this period enriched and developed poetry in general in terms of various components. He strived for maximum unity of form and content in free poetry, and skillfully used new means of artistic description and expression. New poetic stereotypes of events and processes have been formed in the poem. The phonetic sound of poetry was born from the content and essence, and increased its descriptive effectiveness. All this has opened wide opportunities for free poetry to enter a new stage.


**Redaksiyaya daxil olub:** 17.05.2022